Aqil ABBAS

ALLAHI QATİL EDƏNLƏR

Detektiv roman

(Əvvəli ötən saylarımızda)

Təcili Yardım maşını ulaya-ulaya kəndə girdi. Güllə səsi kəndi diksindirməsə də, maşının ulartısı hamını bir anlıq Məmatidən ayırdı.

Kimsə ərinə-ərinə eyvana çıxdı, kimsə ərinə-ərinə həyətə düşdü, kimsə də bir xəbər bilmək üçün qonşuya səsləndi:

- Qonşu, ay qonşu!
- Hayy!
- Kənddə kim xəstələnib?
- Kənddə sağlam adam qalıb ki?!

Qız Atası da eyvana çıxdı və gördü ki, körpüdən keçən maşın Akademikgilin doqqazına döndü, qayıtdı içəri:

- Arvad, dur görüm.
- Nə olub?
- Təcili Yardım Akademikgilə getdi. Görünür, arvada nə isə olub. Yazıq arvadı bu dərd öldürəcək.
- Qızı oyadım?
- Qızı neynirsən, gəl görüm.

Həyətə girəndə sürücü siqaret çəkirdi.

Qız Atası:

- Axşamınız xeyir, oğul.
- Axşamınız xeyir.
- Nədi, arvada nəsə olub?
- Bilmirəm, dayı, vallah deyəsən kimə isə güllə dəyib.

Qız Anası əlini vurdu dizinə:

- Allah, sən saxla. Deyirdi, vallah, deyirdi. Deyirdi ki, özümü öldürəcəm.

Qalxdılar eyvana və girdilər içəri. İçəri girənlərin kimlər olduğunu görən Böyük Qardaş çığırdı:

- Onları bayıra çıxardın!

Ata cəld ikisini də zorla itələyib çıxartdı bayıra, amma gec idi, ikisi də stolun üstə kimin uzandığını görmüşdü. Və Qızın Anası necə fəryad qopartdısa...

Məmatinin atdığı güllələrin səsi eşidilməz oldu. Bu fəryad kəndin sinəsindən tutub babat silkələdi və hamı töküldü bayıra.

Vay xəbərdən ötrü sino gedən kənd camaatı həyəti doldurub-daşdırdı, elə bil Akademikin tabutunu indicə gətirmişdilər. Birdən-birə televiziyaların qarşısı necə boşaldısa, Məmati də çaşqın-çaşqın Buluda baxdı ki, bu camaat necə oldu?!

Təcili Yardım maşını həyətdən gücbəla ilə çıxdı. Kənddə ayağı yer tutan qalmadı, maşınlara doluşub Təcili Yardımın arxasınca rayon mərkəzinə yollandılar.

Akademikin də, Qızın da valideynləri Təcili Yardımın arxasınca gedən maşındaydılar. Qız Anası dizinə döyə-döyə ərini söyürdü:

- Ay itoğlu, sənə demirdim o tüfəngi ortalıqdan götür?! Ay itoğlu, sənə demirdim o tüfəngi gizlət?!

Qız Atası isə arvadının başını sinəsinə qoyub xısın-xısın ağlayırdı.

Təcili Yardım xəstəxananın həyətinə girəndə burda da qələbəlik idi. Prokuror da, polis rəisi də, baş həkim də həyətdə gözləyirdilər. Başçıya da məlumat vermişdilər.

Başçı da dərhal baş həkimə telefon açmışdı:

- Əlinizdən gələni edin. Bakıdan həkim çağırın.

Xəstəni yuxarı qaldıranda Akademikin Atası oğluna dedi:

- Oğul, əllərinə qurban olum, qızımı səndən istəyirəm.

Qız Atası "qızımı səndən istəyirəm" sözlərini eşidəndə özünü saxlaya bilmədi, Akademikin Atasını qucaqlayıb hönkürdü:

- Oyy! Ay qardaş, bu nə işdi başımıza gəldi.

Artıq üçüncü gün idi ki, kənd camaatı yalnız gecə düşəndə evə gedirdi, bütün günü xəstəxananın həyətindəki çayxanada qeybətlə məşğul idilər.

- Qızda hikkəyə bax ey!
- Bu da bizim Fərizədi.
- Ə, boş-boş danışmayın, qoyun görək başımıza nə gəlir.
- Qız deyil ey, Həcərdi! Qeyrətinə qurban olum!

Bir nəfər isə artıq neçənci dəfəydi ki, deyirdi:

- Ay qardaşlar, mənim sözümü qəribçiliyə salmayın. İstəyirsiz inanın, istəyirsiz yox, o namərd Polkovniki bu qız öldürüb, görüb işin üstü açılır, özün atıb.
- Vallah, mən də unamışdım...
- Ə, yenə səfeh-səfeh danışmayın! Qoyun camaat dərdin çəksin də! Xalqın uşağın dilə-dişə salmayın. Özü də öldürübsə, lap yaxşı eləyib.
- Biz də onu deyirik də!

Prokuror Başçıya telefon açdı:

- Cənab Başçı, biz özünü öldürməyə təhriklə bağlı cinayət işi qaldırmışıq. Dedim bir sizinlə məsləhətləşim.

Başçı:

- Sən prokurorsan, qanunları da məndən yaxşı bilirsən, məndən niyə soruşursan? Ehtiyatsızlıqdan baş verən bir hadisədi, əsas odur ki, xoşbəxtlikdən hər şey yaxşı qurtarıb. Özün başa düşdün də!
- Cənab Başçı, Cinayət Məcəlləsinin 125-ci maddəsinə görə...
- Dostum, sən Cinayət Məcəlləsindən həmin maddə yazılan səhifəni cır...

***

Kriminalist həyətə girəndə Akademikin Atası həmişəki kimi tut ağacının altında çay içirdi, stolun üstündə bir topa da qəzet vardı, qonağı görən kimi dilxor-dilxor başını yellədi, amma hörmət xatirinə ayağa qalxdı, əl tutub görüşdü, oturmağa yer göstərdi:

- Xoş gəlmisiz, əyləşin.
- Xoş gününüz olsun.

Kriminalist oturdu, Akademikin Atası qonağa da çay süzdü, amma əsəbini gizlədə bilmədi:

- Ay oğul, niyə qoymursuz öldüyümüz yerdə ölək?! Bir tərəfdən də bu qəzetlər! Bəlkə o bədbəxt qızı da biz vurmuşuq?!

Kriminalist atanın nə çəkdiyini çox gözəl başa düşdüyündən onun bu tikanlı sözlərindən incimədi:

- Ağsaqqal, mən sizi yaxşı başa düşürəm, dərdinizə də şərikəm. Xahiş edirəm, siz də məni başa düşün. Mən təkcə Polkovnikin qatilini axtarmıram. O uşaqların öldürülməsinin səbəblərini açmaq istəyirəm. Bu gün-sabah elmlər namizədi olacaq gənc bir aspirantın belə bir cinayətə əl atmasının çox köklü səbəbləri var. Mən əgər bunu üzə çıxarmasam, sənin oğlun kimi hələ çox oğullar qurban gedəcək.

Akademikin atası istehza ilə güldü:

- Ondan əvvəl baş verən cinayətləri açdılar ki, siz də bunu açasız?! Sizdən əvvəl bir namuslu müstəntiq vardı. Cinayətləri açmışdı də, nə oldu? Deyirlər indi kartof satır. Gözlə, səni də soğan satmağa göndərərlər.

Kriminalist güldü:

- Hər halda soğan satmaq vicdan satmaqdan yaxşıdı. Amma mənə başqa şey təklif edilib, əgər Polkovnikin qatilini tapsam, böyüdəcəklər, hələ bəlkə prokuror qoydular. İnanın, amma mən bu işi prokuror olmaq üçün açmaq istəmirəm. Mən sadəcə vəzifə borcumu yerinə yetirirəm.
- Oğul, kim sizə deyir vəzifə borcunuzu yerinə yetirməyin. Amma bizdən nə istəyirsiz? Bilmirik dərdimizi çəkək, yoxsa sizin eyni suallarınıza cavab verək. Bir məsələnin üstə nə qədər qayıtmaq olar? Eyni sözü nə qədər soruşmaq olar? Kaş onu elə mən öldürmüş olaydım. Onu mərdi-mərdanə öldürərdim, kişi kimi, xəlvətcə atmazdım. Kişi kimi də gedib girərdim polisə, başımı da dik tutardım. El-oba da deyərdi kişi intiqamını aldı. El-oba cəhənnəm, bu arvadın ürəyi soyuyardı. Bilmək istəyirsinizsə, bir neçə dəfə gedib vurmaq istədim, amma vura bilmədim, insan öldürmək asan iş deyil. Mən onu Allaha tapşırmışdım, Allah da cəzasın verdi. Bir də ki, ay oğul, mən min ilin ovçusuyam, quşu gözündən vururam. Amma mənim eşitdiyimə görə ona iki güllə atıblar.
- Bildiyimə görə, ovçular patronları özləri hazırlayırlar, düzdü?
- Baxır ovçuya. Əldəqayırma ovçuları deyə bilmərəm, amma əsil ovçular, hə. Bilirsiz, oğul, silah ovçunun canıciyəridi. Silah həm də qadın kimidi, naz istəyir, sevgi istəyir. Gərək onu əzizləyəsən, oxşayasan, küsdürməyəsən, könlünə toxunmayasan. O patronu, gülləni gərək özün düzəldəsən. Öz əlin, öz nəfəsin dəyə ki, o da səni eşidə, darda qoymaya.
- Sizin emalatxanaya baxa bilərəm?
- Uşaqdan sonra nə o emalatxanaya girmişəm, nə də əlimə tüfəng alıb ova getmişəm. Amma baxmaq istəyirsizsə, gedək baxın. Ürəyiniz sakitləşsin.

Qalxdılar. Həyətin aşağısında kərpicdən bir daxma vardı, qapısından da qara bir qıfıl asılmışdı. Akademikin Atası cibindən bir topa açar çıxartdı, əlində fırlayıb lazım olan açarı tapdı və qıfılı açdı, keçdilər içəri.

Bura əməlli-başlı bir emalatxana idi. Kriminalistin təəccüblə baxdığını görən Akademikin Atası:

- Mən həm də ustayam, oğul. Bu rayonda kimin tüfəngi xarab olsa, qundağı qırılsa, kimə tüfənglə bağlı bir şey lazım olsa mənim yanıma gəlir. Patron qəhətə çəkiləndə patron-zad da düzəldib satardım. İndi Allaha şükür, hər küçədə bir ovçu mağazası var. Bəzən polislərin də mənə işi düşür. - Sonra əlini atıb divardan asılmış bir tüfəng götürdü, bir az o tərəfinə, bir az bu tərəfinə baxdı, sığalladı; - Bu tüfəngi özüm düzəltmişəm. Qorbaçov tüfəngləri yığanda camaat düşmənin qabağında əliyalın qalmışdı. Onda bu emalatxanada iyirmi-iyirmi beş belə dayandoldurum düzəldib paylamışdım camaatakı düşmən qabağında aciz qalmasınlar. Ermənilərin avtomatının qabağında bu sapandıydı, amma səsküy salırdı, az-çox işə yarıyırdı. Bunlarla qorumuşuq bu kəndi.

Kriminalist:

- Bu tüfənglərdən kənddə qalıb?
- Yox əşi, hardan?! Bunlar tez xarab olur. O vaxtlar gətirirdilər, düzəldirdim. Sonra day heç kimə lazım olmadı. İndi maşallah, mağazalarda avtomat da satırlar, kimin nəyinə lazımdı bu dayandoldurum. Bircə mən saxlamışam, o günlərin yadigarıdı. Dedim axı, silahı gərək küsdürməyəsən.

Kriminalist tüfəngi alıb baxdı, bir qədər kobud görünsə də əməlli-başlı silah idi.

- Bu tüfəngi mənə satarsız?
- Ovçu tüfəngin satmaz. Dedim axı o günlərin yadigarıdı. Əvvəllər ova gedəndə hərdən özümlə götürərdim ki, könlünü xoş eləyim.

Kriminalist çox ehtiyatla soruşdu:

- Mən bunu bir neçə günlüyə götürə bilərəm?

Akademikin Atası kinayə ilə:

- Deyirsən yəni Polkovniki bununla atıblar? Əgər şübhələnirsinizsə, buyurun, götürün. Bəlkə yolda qabağınıza qurd-quş çıxdı, alın dörd-beş patron da verim, özüm hazırladığımdan. - dedi və əlini atıb bir neçə patron götürdü və Kriminalistə uzatdı: - Alın.

Və patronları elə ürəklə uzatdı ki, Kriminalist duruxdu:

- Yox, lazım deyil, - sonra soruşdu: - Doğrudan bu atır? Mənim üçün çox maraqlıdı.

Akademikin Atası tüfəngi götürüb çıxdı bayıra, doldurdu və verdi Kriminalistə, tutun gövdəsini göstərib dedi:

- Çaxmağı çəkin.
- Yox, yox, özünüz atın. Sadəcə bilmək istəyirəm görüm, doğrudanmı bununla kəndi qoruya bilmisiz.

Akademikin Atası tutun gövdəsini nişan alıb tətiyi çəkdi, elə bil beşaçılandan atdılar, güllə gövdəyə sancıldı, ağacın qabıqları parçalanıb töküldü:

- Hərdən ağacı qorxutmalısankı yaxşı bar gətirsin! - sonra tüfəngi Kriminalistə uzatdı: - Buyurun aparın, şübhədən sizin də canınız qurtarsın, bizim də.

Güllə səsinə Ana evdən çıxdı və Kriminalisti görən kimi də dilxor oldu, amma biruzə vermədi:

- Ay kişi, nə olub?
- Heç, həyətə tülkü girmək istəyirdi.

Ana düşdü həyətə, qonağa:

- Xoş gəlmisiz,- dedi və cavab gözləmədən getdi darvazaya tərəf: - Mən gedirəm uşağa dəyim, sən gələcəksən?
- Get, gələrəm. Bütün günü uşağın yanındadı.

Kriminalist söhbətin hansı uşaqdan getdiyini bildiyindən soruşdu:

- Necədi?
- Sağalır, - dedi Akademikin Atası, tüfəngi stola söykədi: - Siz oturun, mən də çayı bir təzələyim- dedi və çaydanı götürüb qalxdı evə.

Fürsətdən istifadə edən Kriminalist cib bıçağını açıb tutun gövdəsindəki gülləni səliqə ilə çıxarıb qoydu cibinə.

Ayrılanda Akademikin Atası dedi:

- Bilirsiz oğul, müstəntiq kimi yox, qonaq kimi nə vaxt gəlsəniz bu qapı sizin üzünüzə açıqdır. Üz-gözünüzdən də görünür ki, yaxşı insansınız, müstəntiqdən çox müəllimə oxşayırsız.
- Müstəntiq necə olur ki?
- Vallah, nə bilim, işim düşməyib. Amma deyirlər, çığırırlar, bağırırlar, hətta söyürlər, nə bilim, döyürlər.

***

Kriminalist kabinetə daxil olan kimi eksperti yanına çağırdı, dəsmalı cibindən çıxardıb ona uzatdı:

- Bunu götür, təcili ekspertizadan keçirt və gətir mənə. İçində güllə var.

Otaqda var-gəl edir və Tanrıya yalvarırdı ki, şübhəsi doğru çıxmasın, ailənin ikinci bir faciəni yaşamasını heç istəmirdi. Bu cinayətin açılması rütbə demək idi, mükafat, vəzifə demək idi. Amma bu dəqiqə onu nə rütbə, nə mükafat, nə də vəzifə maraqlandırırdı. İndi otaqda var-gəl edə-edə Tanrıya yalvarırdı ki, bu cinayəti kim edir-etsin, Akademikin ailəsindən başqa.

Ekspertin cavabı gecikmədi və Tanrı Kriminalisti eşitmədi - güllələr eyni silahdan atılmışdı.

(Ardı növbəti sayımızda)